


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 205 (23.847)

4 noyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçlə görüşüb. Dövlətimizin başçısı vurğulayıb ki, demək olar 50 ildir ki, Bakı və Sarayevo qardaşlaşmış şəhərlərdir. Müstəqillik illərində bu sıx əməkdaşlıq davam etdirilir.

* * *

Prezident İlham Əliyev həmin gün Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib. Görüşdə Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin ölkəmizin müvafiq qurumları ilə səmərəli əməkdaşlığından məmnunluq ifadə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Xorvatiya Respublikasının sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib. Söhbət zamanı "COVID-19-dan sonrakı dünya" adı altında keçiriləcək VIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunulub, bu tədbirin beynəlxalq əməkdaşlığa töhfə verəcəyi vurğulanıb.

* * *

Prezident İlham Əliyev noyabrın 3-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.



## Medalların təqdimat mərasimi keçirilib

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci ilin dekabr və 2021-ci ilin iyun aylarında imzaladığı sərəncamlarla respublikamızın ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş hərbi qulluqçuları müxtəlif orden və medallar ilə təltif etmişdir.*

Noyabrın 3-də Naxçıvan Şəhər İcra Hakimiyyətində ölkə başçısı tərəfindən təltif olunan medalların, həmçinin onların vəsiqələrinin Vətən müharibəsi iştirakçısı və şəhid ailələrinə təqdim edilməsi münasibətilə tədbir keçirilib.



Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı, Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin iştirakı ilə keçirilən tədbirdən əvvəl İkinci Qarabağ müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, bu gün ölkəmizdə milli ordumuz, əsgər və zabitlərimiz hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər muxtar respublikamızda da uğurla davam etdirilir. Hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, hərbçi ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı yüksəldilir. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən hər il noyabrın 8-də Zəfər Gününün qeyd olunması sözügedən uğurlu addımların davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müntəzəm olaraq sərhəd bölgələrində, hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin həyat şəraiti ilə maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə, onlarda vətənpərvərlik hisslərini daha da gücləndirir. Bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri tarixi torpaqlarımızı işğaldan azad etdi. Vətən uğrunda qəhrəmanlıqla vuruşaraq şəhid olan, döyüşdən qəhrəman kimi ayrılan, bizim hər birimizə qalib ölkənin vətəndaşı kimi başıuca gəzməyi bəxş edən cəsur, igid, qorxmaz Azərbaycan oğullarına xalqımız daim minnətdar olacaqdır.

Qeyd edilib ki, Vətən uğrunda canından keçən şəhidlərimizin 15-i Naxçıvan şəhərinin qeydiyyatında olmuşdur. Vətən müharibəsində böyük şücaət və qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmiş Naxçıvan şəhər sakinləri mayor Həsənov Sadiq Əli oğlu, baş leytenant Zeynalov Elnur Elsevər oğlu, baş leytenant Əlizadə Fuad Nazim oğlu, baş leytenant Hüseynov Raqib Adil oğlu, əsgər Qurbanov Xansu Elsevər oğlu, əsgər Məmmədov Araz Qəhrəman oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunublar. Baş leytenant, qazi Həsənov Hüseyn Azad oğlu "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, mayor Anar Aqilov çıxış edərək bildirib ki, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə, xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Nəticədə, işğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, zabit və əsgərlərimizin, qazilərimizin qanı və canı bahasına azad olundu.

Sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları Vətən müharibəsi iştirakçısı və şəhid ailələrinə təqdim edilib.

Vətən müharibəsi iştirakçısı və şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Məcid RƏŞADƏTOĞLU

## Muxtar respublikada tikinti-quruculuq tədbirləri geniş vüsət alıb



***Muxtar respublikamızın şəhər və rayonlarında genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri cari ildə də davam etdirilmiş, bir sıra yeni sosial obyektlər istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının cari ilin yanvar-sentyabr aylarının nəticələrinə nəzər salsaq, görərik ki, həmin dövrdə bütün maliyyə mənbələrindən əsas kapitala 806 milyon 538 min 300 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Vəsait qoyuluşlarının 773 milyon 293 min 600 manatı və ya 95,9 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur.***

2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada 219 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 184 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2021-ci ilin 9 ayında 5 kənd mərkəzi istifadəyə verilmiş, 7 kənd mərkəzinin tikintisi, 1 kənd mərkəzinin yenidən qurulması davam etdirilmişdir. Bundan əlavə, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binası yenidən qurulur.





Muxtar respublikada kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə bələdiyyələrə 15 traktor və 15 qoşqu verilmişdir.

Muxtar respublikada 2 yaşayış binasının tikintisi, 4 yaşayış binasının yenidən qurulması başa çatdırılmış, 1 yaşayış binasının tikintisi, 10 yaşayış binasının yenidən qurulması davam etdirilmişdir. Bundan əlavə, Naxçıvan şəhərində tələbə yataqxanasının yenidən qurulması başa çatdırılmış, "Gənclər Yaşayış Kompleksi"nin tikintisi davam etdirilmişdir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmiş, 2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 364 min 43 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.

Xəbərlər şöbəsi

*Cümə günü, səhərin erkən çağıdır. Didilib pilələnmiş yun kimi çəngə-çəngə olub göy üzünə səpələnən bulud laylarını yarmaqla öz hünərini göstərməyə çalışsa da, istəyinə çata bilməyən solğun çöhrəli Günəşin və arabir təlatümə gələrək ağacların bahar həsrətli göz yaşlarını damla-damla axıtdıran küləyin müşayiəti ilə kiçik kəndin böyük büsatının tamaşasına tələsirəm. Naxçıvan şəhərindən Araz kənd mərkəzinədək uzanan geniş, abad yolla irəliləyən avtomobilin pəncərəsindən ətrafa nəzər yetirəndə gözlərim önündə müstəqillik illərinin bəhrələri fonunda rəngarəng çalarlı zəngin bir albom vərəqlənir: Payız albomu. Düşünürəm: – Müəllifi payız olan bu albomun səhifələri bir-birini necə də müfəssəl şəkildə tamamlayır. Mahir bir rəssamın incə qələmindən süzülən mükəmməl sənət əsərini xatırladan, rənglərin harmoniyasından doğan bu gözəlliklər qarşısında heyranlığı gizlətmək, onu vəsf etməmək mümkün deyil. Uzun pərli qanadlarını gərərək məğrur-məğrur süzən, ov görərkən ildırım sürəti ilə aşağıya şığıyan leyləklərin, baharın müjdəçisi sayılan qaranquşların, eldən-elə qatarlaşıb köç edən durnaların bir daha geri dönmək ümidi ilə tərk etdikləri yuvalar xəbər verir fəslin gəlişini. Yol kənarlarına xüsusi nizamla əkilən ağacların xəfif küləyin təsiri ilə budaqlardan qoparaq aramla yerə enən yarpaqları, sıra ilə düzülən, sanki bu torpağı bədnəzərlərdən qorumağa çalışan dağların üzərinə sığal çəkən, ağ örpəyə bənzəyən çən, duman qatı, asta templə yağan yağışın ağaclarda son anlarını keçirən qızılı rəngli yarpaqların üzərindəki almaztək parıldayan damlaları bir payız nəğməsinin notlarıdır, sanki...*

*Müasirləşən kəndlərimiz*

# Kiçik kəndin böyük büsatı...



Təbiətlə insan zəhmətinin harmoniyasından doğan bənzərsiz mənzərələri seyr edə-edə yolun çox hissəsini necə qət etdiyimin fərqində olmuram, rahat asfalt yolla şütüyən avtomobilimiz çox keçmir ki, ünvana yetişir. Budur, artıq qarşımdadır, kiçik kəndin böyük büsatı. Hələ buraya üz tutmazdan bir neçə gün əvvəl Araz kəndində yeni sosial obyektlərin açılış tədbirini qəzetdən oxuyanda düşünmüşdüm bu sərlövhəni. Və kənd elə ilk baxışdan düşüncələrimdə yanılmadığımı əyani şəkildə təsdiq edir. Yaşayış məntəqəsinə ayaq basdığım andan özümü, sanki Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində hiss edirəm: Bir tərəfdə bir-birinə boyverən yaraşıqlı kənd, xidmət mərkəzləri, həyətində uşaqların şən-şaqraq gülüş səslərinin ətrafa yayıldığı məktəb binası, digər yanda da rahat, səliqəli səkilər, asfalt yollar, baxımlı, gözoxşayan həyət evləri...



Dünən



Bu gün

Məktəb

Kəndlə yaxından tanışlığıma ilk vəsilə olan şəxs əlində ərzaq dolu torbalarla xidmət mərkəzindən çıxıb evə tələsən Əli Vahabovdur. Ayaqüstü söhbətimiz zamanı ürəkdolusu böyük razılıqla danışan kənd sakini deyir ki, 18 ildir, yaranan, adını məşhur çayımızdan alan yaşayış məntəqəsi qısa zamanda böyük yol qət edib: Əvvəllər Arazda yaşayış indi gördüyünüz kimi ürəkaçan deyildi. Kənddə nümunə üçün bir ərzaq mağazası belə, yox idi. Evimizə bir qonaq gələndə, sözün əsl mənasında, canımıza üşütmə düşər, nə edək, necə edək deyərdik. Adi ərzaq məhsullarını belə, almaqdan ötrü kilometrlərlə məsafə qət etməli olurduq. Ümid yeri kimi üz tutduğumuz ünvan ya Nehrəm qəsəbəsi idi, ya da Babək şəhəri. Təbii ki, bu həm əlavə xərcə yol açır, həm də vaxtımızı alırdı. Yaşasın dövlətimiz ki bu problemi aradan qaldırdı. Özünüz də istəsəniz buyurub xidmət mərkəzinin içərisinə baxa bilərsiniz. İndi buradan nə istəsən, tapmaq olar: bütün ərzaq, təsərrüfat malları, məktəbli ləvazimatları... Əlimdə gördüyünüz bu torbalarda ərzaq məhsulları ilə yanaşı, ədviyyatlar da var. Evin xanımı "həftəbecər" turşusu qoyacaq qışa, onun üçün almışam, "Naxçıvan qovurması" da hazırlayırıq, qonağımız ola bilərsiniz...



Dünən

Yol



Bu gün

Ulu babalarımızın "Abad el yolundan və suyundan bəlli olar" hikmətli sözünü xatırladan Əli kişi bildirir ki, Araz kəndində həm yollar yüksək səviyyədə qurulub, həm də həyətlərə içməli su və kanalizasiya xətləri çəkilib. Yəni elimizin abadlığı tam şəkildə bəllidir. Ancaq keçmişi də unutmaq olmaz. Bəli, yay-qış bilmədən, qarda, boranda, soyuqda, istidə Nehrəmdən bidonlarla su daşıyanda heç ağlımıza da gəlməzdi ki, gün gələcək həyat mənbəyimiz sayılan bu təbii varlıq özü evimizə gələcək. Həm də qonaq qismində yox, həmişəlik, daimilik. Onu da deyim ki, ümumiyyətlə, kəndin köhnə simasından əsər-əlamət belə, qalmayıb. Rabitə, poçt xidmətlərindən yararlanmağımız və digər həyativacib məsələləri vaxtlı-vaxtında həll etməyimiz üçün müasir kənd mərkəzi istifadəyə verilib, elektrik xətləri, dirəkləri yenilənib. Yaxşı yadımdadır, əvvəllər yararsız naqillər, dirəklər üzündən havanın küləkli vaxtlarında küçə-bacadan qorxa-qorxa, ehtiyatla keçərdik. Özümüzdən də çox övladlarımızın səhlənkarlığından təlaşlanardıq. Hamımız uşaq olmuşuq. Bir dəfə deyirsən, bala, çıxma belə vaxt küçəyə, iki dəfə deyirsən, üçüncü dəfə yenə çıxır. Şükürlər olsun ki, bu xoşagəlməz hal da tamamilə aradan qaldırıldı. Fikirlərimə yekun olaraq deyim ki, bir kənd sakini üçün bundan böyük diqqət, bundan böyük qayğı təsəvvür etmək mümkün deyil. Biz də üzərimizə düşən məsuliyyəti dərindən dərk edib, Ali Məclis Sədrinin kənd camaatı ilə görüşündə qurub-yaradılanları qorumaq, məskunlaşma, torpaqlardan səmərəli istifadə olunması, yaşıllıqların salınması, ailə təsərrüfatlarının inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqları əldə rəhbər tutaraq kəndimizin daha da gözəlləşməsi, böyüməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Fürsətdən istifadə edib bütün bu yaradılanlara görə həmkəndlilərim adından dövlətimizə minnətdarlıq edirəm.

Alman filosofu Artur Şopenhauerin gözəl bir sözü var: "Sağlamlıq hər şey deyil, amma sağlamlıq olmadan hər şey bir heçdir". Bəli, canımız sağlam olduqda ətrafımızdakı bütün gözəlliklərdən müsbət enerji alır, naz-nemətin ləziz dadını, tamını duya bilirik. Ömrümüzə qonaq gələn hər fəsil öz bənzərsizliyi ilə sağlam ruhumuzu daha da təzələyir, həyatımız maraqlı və xoş anlarla yaddaşımıza yazılır. Xəstələnən zaman isə gülün, çiçəyin ətrini duya bilmir, giley-güzarımız çoxalır, həyata küskünləşir, əlimizi işdən soyuduruq. Məhz insan sağlamlığını prioritet vəzifə kimi qarşıya qoyan dövlətimiz bütün yaşayış məntəqələrində olduğu kimi, Araz kəndində də səhiyyə ocağı üçün müasir şərait yaradıb. Kənd mərkəzində fəaliyyət göstərən feldşer-mama məntəqəsi ilə tanışlıq zamanı məntəqənin müdiri, 19 ildir, səhiyyə sahəsində çalışan Şərbanı Hüseynova deyir ki, əvvəllər məktəbin tərkibində ayrılmış bir otaqda fəaliyyət göstərirdik. Otaqda bir şkaf var idi, bir də çarpayı. Dərmanları daşımaq üçün çanta da yox idi. Hər hansı avadanlıqdan söhbət gedə bilməzdi. İndi kənd mərkəzində müasir iş şəraiti yaradılıb: ilk yardım üçün ləvazimatlar, təzyiq, şəkər, boyölçən aparatlar, tərəzi, dərmanları saxlamaq üçün soyuducu və daha nələr... Bir kəndin tibb müəssisəsi üçün zəruri olan nə lazımsa, vardır. Əvvəllər insanlar səhhətlərində yaranan adi nasazlığa görə kilometrlərlə məsafə qət etmək məcburiyyətində qalır, yolların da bərbadlığı üzündən xoşagəlməz hallar qaçılmaz olurdu. Ancaq indi daha bu çətinliklər arxada qalıb, xəstələrə istər məntəqədə, istərsə də, ehtiyac olarsa, ev şəraitində tibbi yardım göstərmək imkanımız vardır. Azyaşlılar vaxtlı-vaxtında peyvənd olunur, sakinlər arasında maarifləndirici söhbətlər aparılır ki, bu da insanların ən həssas məsələyə diqqətini artırır və beləliklə də, müsbət nəticələr əldə edilir...



Deyirlər, təhsil çörək və sudan sonra xalqın əsas zəruri ehtiyacıdır. Təqdirəlayiq haldır ki, bu gün muxtar respublikamızın şəhər, qəsəbə və kəndlərində insanların bütün zəruri ehtiyacları yüksək səviyyədə, tam şəkildə ödənilir. Araz kəndində də istifadəyə verilən sosial obyektlər içərisində məktəb binasının olması müəllim və şagirdlərin hədsiz sevincinə səbəb olub. Elə kəndlə tanışlıq zamanı binanın həyətində qovalaqaç oynayan uşaqların şən-şaqraq gülüş səslərindən, müəllimlərin çöhrələrini bürüyən təbəssümdən də onların sevincini hiss etmək çətin deyil. Təhsil ocağının Azərbaycan dili və ədəbiyyat müəllimi, 32 illik pedaqoji təcrübəyə malik Zeynəb Babayeva söhbət zamanı köhnə məktəbdəki tədris şəraitinin acınacaqlı vəziyyətini xatırladır. Deyir, dəmir konstruksiyalardan düzəldilmiş məktəb his qoxan otaqları, tozlu-torpaqlı döşəməsi, sınıq-salxaq partaları ilə "seçilirdi". İlin bu dövrlərində isə vəziyyət daha acınacaqlı hal alır, uşaqlar arasında mövsümi xəstəliklər yayılırdı ki, bu da dərslərdə ləngimələrə yol açırdı. Nə valideynləri qınamaq olurdu, nə də uşaqları. Nə özümüz paltonu çıxara bilirdik, nə də şagirdlər. Yenə qarşıdan soyuq qış ayları gəlir. Ancaq daha nə qar, nə də boran pedaqoji kollektivi, şagirdləri qətiyyən qorxutmur. Çünki dövlətimizin qayğısı sayəsində yeni istifadəyə verilən bina istilik sistemi ilə tam təchiz olunub. Yeni bina özü ilə çoxlu yeniliklər gətirib. Əvvəllər uşaqlar laboratoriyaları ya televiziya ekranlarından, internetdən görər, ya da başqa kəndlərdəki həmyaşıdlarından eşidərdilər bu haqda. Ancaq bu gün onların biliklərinin praktik surətdə zənginləşdirilməsi üçün ən yeni texnologiyalarla təchiz olunan fizika və kimya-biologiya laboratoriyaları istifadəyə verilib. Digər tərəfdən məktəbdə idman dərslərinin keçilməsi üçün şərait olmadığından uşaqların fiziki hazırlığı da aşağı səviyyədə idi. İndi isə müxtəlif idman oyunlarını öyrənmək üçün geniş zal, binanın həyətində qurğular, eləcə də şahmat otağı vardır.

Aqillərin "Kitab bir nəslin o biri nəslə qoyub getdiyi mənəvi vəsiyyətdir" hikmətli fikrini xatırladan Zeynəb müəllimə qeyd edir ki, kitablar bizim mənəvi qidamızdır, mütaliəsiz insan, ruhsuz bədən kimidir. Məktəbimizin acınacaqlı vaxtlarında ən çox qorxumuz bu mənəviyyat xəzinəsini itirməklə bağlı olub. Kitabxanamız olmadığından kitabları müəllimlər otağında saxlayırdıq, tüstüdən, hisdən, küləkdən qorumağa çalışırdıq onları. Bəlkə də, ixtisasımdan irəli gəlir, deyə bilmərəm. Ancaq təvazökarlıqdan uzaq olmasın, kitablara qarşı çox həssasam. Hər zaman şagirdlərimə deyirəm ki, dəftəri, qələmi, çantanı yaddan çıxarmaq, itirmək olar, amma mənəvi qidamız sayılan kitabı yox. Bu mənada, yeni binada məni ən çox sevindirən də məhz zəngin kitabxananın istifadəyə verilməsi oldu. Həmçinin məktəbdə yeni STEAM kabinəsi də yaradılıb ki, bu da şagirdlərin düşüncə tərzlərinin, dünyagörüşlərinin müasir dövrün yeniliklərinə uyğun inkişaf etdirməsinə yol açacaq. Ümumiyyətlə, yeni məktəbimizin bütün üstün məziyyətləri pedaqoji kollektiv, valideyn və şagirdlər tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanır. Düşünürəm ki, Beynəlxalq Müəllimlər Günü ərəfəsində biz müəllimlər üçün bundan böyük hədiyyə ola bilməzdi. Uzun illər təhsil sahəsində çalışan təcrübəli pedaqoq kimi bütün bu sadaladığım və digər üstünlükləri bizlərə bəxş etdiyi üçün dövlətimizə minnətdarlıq edirəm.

Araz kəndi ilə tanışlıq zamanı öyrənirəm ki, son illərdə burada təsərrüfat qurub, iş-güc sahibi olanların sayı xeyli artıb, məskunlaşma çoxalıb. Yaşı 50-dən yuxarı olan kənd sakini İlyas Əlirzalı 6-7 il olar öz ailə təsərrüfatını yaradıb. Deyir, heyvandarlıq sahəsinə 10 xırdabuynuzlu ilə başladım, daha sonra vəziyyəti götür-qoy edib təsərrüfatı genişləndirmək qərarına gəldim. Bu zaman isə dövlətimin dəstəyi köməyimə yetdi. Maliyyə vəsaiti götürərək həm heyvanların sayını artırdım, həm də təsərrüfat üçün digər tədbirləri uğurla həyata keçirdim. İndi artıq 250 başa çatıb xırdabuynuzlu heyvanların sayı. Kəndin coğrafi vəziyyətindən, yaradılan əlverişli şəraitdən istifadə edərək bu işi daha da genişləndirmək niyyətindəyəm.

Kəndin digər bir ailə təsərrüfatçısı İbrahim Sadiqov 130 iribuynuzlu heyvan bəsləyir. Deyir, 2-si pay, 5-i isə icarə olmaqla, 7 hektar ərazidə arpa, buğda, qarğıdalı əkini də həyata keçirir. Təsərrüfatında istehsal olunan süd, qatıq və pendirin alıcısı da, necə deyərlər, başının üzərindədir. Ətlik heyvanları da Nehrəm qəsəbəsində açdığı şəxsi qəssabxanasında kəsib satır, yaradılan şərait hesabına qazandığı halal məvaciblə övladlarını böyüdüb. Araz kəndində istifadəyə verilən sosial obyektlərin iş-güc adamı kimi onun da işini xeyli asanlaşdırdığını vurğulayan İbrahim kişi bütün bunlara görə dövlətimizə minnətdarlıq edir.

*Böyük şairimiz Nizami Gəncəvi "Leyli və Məcnun" poemasında yazır ki, bir xərabə görsən, qurmağa tələs, məsləhət belədir, əməyin itməz. Bəli, hünər daşı daş üstünə qoymaq, qurub-yaratmaqdır, dağıtmağa nə var ki... Müstəqillik illərində Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikamızda bütün sahələrdə həyata keçirilən genişmiqyaslı tədbirlər, qurub-yaradılanlar artıq öz bəhrəsini ən yüksək səviyyədə göstərməkdədir. Qüdrətli ordu və güclü iqtisadiyyat bu yüksəlişin sütunlarıdır. Ötən il 44 günlük Vətən müharibəsi və cari il mayın 10-da ölkə Prezidentinin muxtar respublikaya səfəri çərçivəsində Naxçıvanı* ***"rekordsmen bölgə"*** *adlandırmaqla burada gedən işləri yüksək qiymətləndirməsi çəkilən zəhmətin hədər getmədiyini bir daha sübut etdi. Əminliklə demək olar ki, digər yaşayış məntəqələrimizlə yanaşı, böyük zəhmət hesabına yeni görkəminə qovuşan Araz kəndinin də gələcəkdə bu inkişaf və tərəqqidə böyük payı olacaq...*

**Nail ƏSGƏROV**



"Şərq qapısı" – 100

# Azərbaycan mətbuatı tarixində mühüm rolu və böyük xidmətləri olan doğma, qocaman "Şərq qapısı"qəzeti

*"Şərq qapısı" qəzetinin yaranmasında mühüm rolu olanlar, qədim mətbuatın tarixi səhifələrini vərəqləyərkən…*

Ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında çap olunan, məsuliyyətli və şərəfli yol keçmiş önəmli mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin uzun və keşməkeşli yol qət etməsi, bu qəzetin yaranmasında bir çox Naxçıvan ziyalılarının əməyinin olmasını tarixi mənbələr əsasında daha yaxşı öyrənə bilərik. Belə ki, XIX əsrin ikinci yarısından etibarən Azərbaycan, Rusiya və Şərq mətbuatında iştirak edən, Naxçıvandan olan qələm sahiblərinin o dövrün mətbuatı ilə əlaqələrinin yaranması, bu regionda milli maarifçilik hərəkatının inkişafına müsbət təsir göstərməsi gələcəkdə qocaman mətbu orqanının yaranmasına səbəb olur. Həmçinin bir çox mənbədə dünyanın müxtəlif yerlərindən alınan "Tərcüman" (Baxçasaray),"Həblülmətin" (Kəlküttə), "Sürəyya", "Pərvəriş" (Qahirə), "Əxtər" (Tehran), "Novoye obozreniye" (Peterburq), "Kavkaz" (Tiflis) və sair mətbuat orqanlarının Naxçıvan maarifçiləri arasında geniş şəkildə oxunub müzakirə olunması, eləcə də həmin dövrə təsadüf edən "Əkinçi" qəzetinin də Naxçıvanda alınıb oxunması qeyd edilir. Eyni zamanda mətbuatla əlaqələrin genişlənməsində Məhəmməd ağa Şahtaxtlının nəşr etdirdiyi "Şərqi-Rus" qəzeti də mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadənin yaratdığı və baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalında da Naxçıvanın qələm sahibləri fəal iştirak etmişlər. Bütün bunlar isə qədim, birəsrlik tarixi yolu qət etmiş, xalqının keçmişi ilə gələcəyi arasında körpü salan "Şərq qapısı" qəzetinin yaranmasına zəmin yaratdı.

*Naxçıvanda ilk mətbuat orqanının yaranması…*

Qeyd edək ki, Naxçıvanda 1921-ci il 1 noyabr tarixində Naxçıvan Sosialist Şura Cümhuriyyətinin Cavanlar İttifaqının Ölkə Komitəsinin orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə burada ilk qəzet nümunəsi çap edilmişdir. Qəzetin redaktoru Naxçıvanın qələm sahiblərindən Həmid Mahmudov olmuşdur. Qeyd edilir ki, vərəqə formasında olan bu qəzet cəmi iki ay fəaliyyət göstərir. Həmin ilin dekabr ayından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet çap olunmağa başlayır.

Öyrəndiyim mənbələrə görə xüsusi qeyd edək ki, Naxçıvanda son bir əsrdə davamlı şəkildə nəşr olunan mətbuat orqanı "Şərq qapısı" qəzetidir. Naxçıvan Xalq Komissarları Şurasının dəstəyi ilə nəşrə başlayan qəzet 1922-ci ilin aprel ayından etibarən kiçik fasilələrlə bu günümüzədək fəaliyyətini davam etdirmişdir. Qəzetə Həmid Mahmudov, Əhməd Həşimov, Həsən Əlizadə, Əvəz Sadiq, Abbas Gülməmmədov və başqaları ötən əsrin 20-30-cu illərində redaktorluq etmişlər.1933-1935-ci illərdə isə Azərbaycanın Xalq yazıçısı Əli Vəliyev "Şərq qapısı"nın redaktoru vəzifəsində çalışmış və qəzetin ictimai təsir imkanlarını, vətəndaşlıq missiyasını artıran ciddi və kəsərli yazılar çap etmişdir. Həmçinin qeyd edilir ki, Naxçıvanda XX əsrin 30-cu illərində qısa müddətdə "Ədəbiyyat qəzeti" adlı mətbuat orqanı da fəaliyyət göstərmiş, qəzetə Mirzə İbrahimov redaktorluq etmişdir. Eləcə də "Ədəbiyyat qəzeti"nin "Şərq qapısı"nın əlavəsi kimi çap edildiyi də ehtimal olunmuşdur.

*Ölkəmizin tarixindən bəhs edən, diyarımızın tərənnümçüsünə çevrilən qocaman qəzet…*

1941-1945-ci illər, İkinci Dünya müharibəsi dövründə "Şərq qapısı" qəzetinə redaktorluq edən yazıçı-publisist Məhəmmədəli Tarverdiyev arxa və ön cəbhə həyatını əks etdirən bir çox tarixi hadisələrə toxunmuş, səfərbərlik və vətənpərvərlik ruhunda yazılar çap etmişdir. "Şərq qapısı" qəzeti müharibədən sonrakı dövrlərdə tarixi yolunu davam etdirmişdir. Belə ki, müxtəlif illərdə "Şərq qapısı" qəzetinə redaktorluq etmiş Manaf Xudiyev (1953-1956), Fərman Tağıyev (1956-1960), Məmməd Bektaşi (1961-1962) və Hüseyn İbrahimov (1962-1965) dövrün ruhunu əks etdirməklə bərabər, regionda baş verən yeniləşmənin, digər ictimai meyillərin inkişafına da diqqət yetirmişlər. Rəsmi dövlət qəzeti olan "Şərq qapısı" Naxçıvan Vilayət Partiya Komitəsinin orqanı olmaqdan əlavə "Ədəbiyyat və incəsənət" qəzetinin də funksiyalarını həyata keçirmişdir. Xüsusən də qeyd edilir ki, XX əsrin 50-ci illərinin ikinci yarısından sonra "Şərq qapısı" qəzetinə Məmməd Bektaşinin və yazıçı Hüseyn İbrahimovun redaktorluq etdiyi dövrdə ədəbiyyat və incəsənət məsələlərinə diqqət daha da qüvvətlənmiş və eyni zamanda qəzetdə tənqidi yazılar da çap olunmağa başlamışdır. Qəzet nömrələrində tənqidi xarakterli kiçik xəbərlərlə bərabər, felyeton janrında yazılar da yer almışdır ki, həmin yazılar nöqsanları göstərən və diqqəti irəliyə doğru inkişafa yönəldirdi. "Şərq qapısı" qəzetində, ümumiyyətlə, XX əsrin 60-70-ci illər ideologiyasının təbliği ilə yanaşı, həm də ölkə həyatına, xalq amilinə, sadə insanların qayğılarına həsr olunan yazılar çap edilmişdir. Təbii ki, bu dönüş qocaman qəzetin gələcək müstəqillik dövrü üçün mühüm addım idi.

*XX əsrin 70-ci illərindən etibarən "Şərq qapısı" qəzetinin fəaliyyətində yeni tarixi dövrün başlanması…*

Ümummilli lider Heydər Əliyevin qısa zaman kəsiyində Azərbaycanı Sovet İttifaqının qabaqcıl respublikaları səviyyəsinə çatdırması və milli-mənəvi dəyərlərin inkişafına xüsusi diqqət yetirməsi mətbuatda gedən milliləşmə prosesinə də öz təsirini göstərmişdir. Həmin dövrdə ölkə mətbuatlarında, həmçinin "Şərq qapısı" qəzetində Azərbaycanın tarixi, Naxçıvanın keçmişi, çoxəsrlik ənənələrin və milli mədəniyyətin təbliği ilə əlaqədar məsələlərin işıqlandırılmasına başlanılmışdı. Bu dövrdə "Şərq qapısı"na Rəşid Qazıbəyov (1965-1970), Vahid Bağırov (1970-1975), Sənubər Kərimova (1975-1985), Akif Axundov (1986-1990) redaktorluq etmiş, qəzet qurucu-maarifləndirici istiqamətdə fəaliyyət göstərmiş, muxtar respublikanın ədəbi-mədəni mühitinin işıqlandırılmasında mühüm rol oynamışlar. Bütün dövrlər ərzində "Şərq qapısı" qəzetinin ən mühüm funksiyası "Ədəbiyyat qəzeti" kimi fəaliyyət göstərməsi idi. XX əsrin 70-ci illərində "Şərq qapısı"nın ədəbiyyat məktəbində cavan yazıçı və şairlər kimi formalaşanlar sırasında Elman Həbib, Asim Yadigar, Muxtar Qasımzadə, Vaqif Məmmədov, Xanəli Kərimli, Rafiq Babayev, İbrahim Yusifoğlu, Bayram İsgəndərov, Əbülfəz Ülvi və başqaları olmuşdur. Son dövrlərdə isə "Şərq qapısı" ədəbiyyat məktəbinin ədəbi mühitinə Hüseyn Bağır, Elxan Yurdoğlu və başqaları gəlmiş, bu qocaman mətbu orqan onların həyatında, yaradıcılıq fəaliyyətlərində mühüm rola malik olmuşdur. Bununla bərabər, "Şərq qapısı" qəzeti ölkəmizin bütün tarixi hadisələrini, həmçinin Naxçıvanda yaşayıb-yaratmış sənətkarları öyrənmək üçün ən mötəbər mənbədir. Bu qəzetin məktəb mühitində yetişib formalaşan onlarla tanınmış tənqidçi və ədəbiyyatşünaslar olmuşdur. Onlardan Lətif Hüseynzadə, akademik İsa Həbibbəyli, Yavuz Axundlu, Məhərrəm Cəfərli, Hüseyn Həşimli, Əsgər Qədimov, Elbəyi Maqsudov, Fərman Xəlilov, Yusif Səfərov, Surə Seyid, İman Cəfər, Seyfəddin Eyvazov, Əbülfəz Əzimli, Ramiz Qasımov və başqalarının adlarını çəkə bilərik. Eyni zamanda bir çox tanınmış tarixçi və arxeoloq alimlər, dilçilər və təbiət elmlərini təmsil edənlərin də inkişafında "Şərq qapısı" qəzeti xüsusi yer tutur. Akademiklər İsmayıl Hacıyev, Tariyel Talıbov, AMEA- nın müxbir üzvləri Qadir Qədirzadə, Fəxrəddin Səfərli, Əbülfəz Quliyev, Zəhmət Şahverdiyev, həmçinin Vəli Baxşəliyev, Sevindik Vəliyev, Ağarza Rüstəmov, Musa Quliyev, Emin Arif, Nazim Bababəyli, Qadir Əliyev və başqaları "Şərq qapısı"ndan böyük elmə vəsiqə almışlar.

*"Şərq qapısı", yoxsa "Sovet Naxçıvanı"…*

"Şərq qapısı" qəzeti aparıcı istiqamətini müəyyən etməsi ilə müstəqil dövlətçilik ideallarının carçılarından birinə çevrilmişdir. Elə buna görə də muxtar respublikanın mətbuat orqanı olan "Şərq qapısı" qəzeti fəaliyyətində böyük strateji mənaları ifadə etdiyi üçün sovet dövlətinin ən yüksək dairələrini düşündürməli olmuşdur. Məhz bu səbəbdən, sovet hökuməti bəhanələr gətirərək 1979-cu il 30 oktyabr tarixli Qərarına əsasən "Şərq qapısı" qəzetinin adı "Sovet Naxçıvanı" adı ilə dəyişdirilmiş və hər iki dildə nəşrini davam etdirməli olmuşdur. Ayrı-ayrı mətbuatşünaslar, ədəbiyyatşünaslar – ziyalılarımız qeyd edir ki, qəzet adını dəyişsə belə, qəzetin yaradıcı kollektivi "Şərq qapısı"nın ənənələrini qoruyub saxlamış və daha da inkişaf etdirmişdir. Rus dilində nəşrə başlayan "Sovetskaya Naxiçevan" qəzetindən təkcə ideoloji tribuna kimi yox, həm də muxtar respublikanın daha geniş miqyasda tanıdılması üçün istifadə edilmişdir. Və nəhayət, yerli ziyalıların səyi ilə 10 il sonra 1989-cu ildə "Şərq qapısı" adı yenidən bərpa olunmuşdur.

*1990-cı ildə "Şərq qapısı" qəzetinin nəşri tarixində daha bir mühüm addım…*

Yaxın tariximizdən də məlum olduğu kimi, 1990-cı il 19 yanvarda SSRİ dövlətinin dəstəyi ilə Ermənistan SSR Naxçıvan Muxtar Respublikasını işğal etmək məqsədilə muxtar respublikanın ərazilərinə genişmiqyaslı hərbi hücumlar təşkil etmişdir. Sovet dövlətinin rəhbərliyindən heç bir dəstək ala bilməyən yerli əhalinin tələbi ilə 1990-cı il 20 yanvarda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Bakıda baş vermiş qanlı hadisələrə etiraz əlaməti olaraq Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdir. "Şərq qapısı" qəzeti həmin qərarı çap etməklə müstəqil Naxçıvan Muxtar Respublikanın mətbuat orqanı funksiyasını həyata keçirmişdir. O zamanlar bütün qəzetlərdə məcburi şəkildə yazılan "Bütün ölkələrin proletarları, birləşin" şüarı 1990-cı ilin yanvar-fevral aylarında "Şərq qapısı" qəzetinin 8 sayında dəyişdirilmiş "Birlik və demokratiya uğrunda" çağırış şüarı ilə çap olunmuşdur. Bu təkcə "Şərq qapısı" qəzetinin yox, sovet mətbuatının da tarixində nadir hadisə idi. Və beləliklə, 1990-cı ildən Azərbaycanda ilk müstəqil qəzet kimi nəşr edilən "Şərq qapısı" ölkənin və xalqın milli maraqlarına xidmət göstərmişdir. Həmçinin Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandıqdan sonra "Şərq qapısı" qəzeti xalqımızın milli dövlətçilik və maarifçilik yollarındakı tarixi zəfərlərini, ənənələrini və böyük əzmini salnaməyə çevirməkdə davam etmişdir. Ölkənin mətbuat tarixində və müasir inkişafında xüsusi yer tutan "Şərq qapısı" qəzetinə müstəqillik dövründə Səxavət Kəngərli, Məmməd Məmmədov və digərləri redaktorluq etmişlər. Hazırda "Şərq qapısı" qəzeti ideya-siyasi xəttini qoruyub saxlayır, qəzet informasiya imkanlarını genişləndirir. Son illərdə əsl publisistika məktəbinə çevrilən "Şərq qapısı" qəzeti tutduğu şərəfli yolu uğurla davam etdirərək ötən il ölkəmizdə 30 illik həsrətə son qoyan Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin 2020-ci il 27 sentyabr tarixdə verdiyi əks-hücum əmri ilə başlanan Vətən müharibəsi, 44 günlük Zəfər yürüşü, Azərbaycan Ordusunun qələbə qazanması ilə başa çatması, bütün bu qısa zaman kəsiyindəki hadisələri öz nömrələrində geniş şəkildə əks etdirir.

*Bir gənc jurnalistin düşüncəsində "Şərq qapısı" qəzetinin yeri…*

Tarixən fəaliyyətində yaşlı nəsillə yeni nəsil qəzetçilərinin birgə işləməsi, bununla bərabər gəncliyə yol göstərilməsi, gələcəyin peşəkarlarının yetişməsində məlumat və söz xəzinəsi olan "Şərq qapısı" jurnalistika məktəbinin özünəməxsusluğu danılmazdır. Qəzetdə müxtəlif mövzularla, çox profillikliklə cəmiyyət həyatının bütün əsas sahələrini əks etdirmək "Şərq qapısı" qəzetində çalışan jurnalistin, ən azı, bir neçə sahə üzrə ixtisaslaşması zərurətini meydana çıxarır. "Şərq qapısı" məktəbi anlayışı, ilk növbədə, bu qəzetin mühitində yetişib formalaşan yaradıcı nəsilləri əhatə etməklə bərabər, həm də muxtar respublikada yeni mətbuatın da formalaşması və inkişafına yol açan, işıq salan mayak mənasını daşıyır. Naxçıvan Muxtar Respublikasının rayon qəzetləri "Şərq qapısı" lokomotivinə qoşulmuşdur. "Şərq qapısı" bu böyük mətbuat qatarını inamla və yüksək məsuliyyətlə irəli aparır.

Mənim "Şərq qapısı" qəzeti ilə ünsiyyətim iki il öncə başlayıb. Bildirməliyəm ki, "Şərq qapısı" qəzetinin biz gənc jurnalistlərin iş fəaliyyətində rolu əvəzolunmazdır. İlk qələmi əlimə verib məqalələr yazmağı öyrədən də elə bu qəzetdir. Hazırda iş otağımda stolüstü kitabıma çevrilən "Şərq qapısı" qəzeti hər gün yeni informasiyalar verərək mənim və mənim kimi bir çox yeni gənc jurnalistlərin yetişməsində və püxtələşməsində əsas mənbədir. Sevərək oxuduğum məqalələr vasitəsilə yazıda süjet xəttində düzgünlüyü, həmçinin aktuallığı öyrənirəm. Ən əsası isə gənc jurnalistlərə qucaq açan qəzet rəhbəri və kollektivinin biz gənclərə doğma münasibət göstərib yazmağa həvəsləndirməsi və yazılan məqalələrə ən böyük qiyməti verərək "Şərq qapısı" qəzetində nəşr etməsi onu deməyə əsas verir ki, göstərilən bu qayğı və dəstəklə gələcəkdə muxtar respublikamızda daha da çox işinin mütəxəssisi olan jurnalist ordusu yaranacaq.

*"Şərq qapısı"nın sətirlərində Naxçıvan diyarının ritmi döyünür…*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsisçisi olduğu "Şərq qapısı" qəzeti inamla demək olar ki, bu gün Naxçıvan Muxtar Respublikasının canlı sözünə çevrilib. İdeya və cəlbedici yazıları ilə Naxçıvanın taleyini, çətinliklərini və uğurlarını çoxcildlik külliyyatlarında yaşadıb nəsildən-nəslə çatdıran sanballı salnamələri "Şərq qapısı" qəzeti özündə yaşadır.

Xüsusi olaraq qeyd edim ki, bu gün müstəqil və inkişaf dövrünü yaşayan Azərbaycan Respublikasında olduğu kimi, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında da mətbuata, jurnalistlərə qayğı ön sıradadır. Bunun ən bariz nümunəsi 2021-ci il 1 iyun tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncam imzalamasıdır. Bu Sərəncam birəsrlik yol gələn, keçmişdən bu günə qədər qəzetdə fəaliyyət göstərən qələm sahiblərinin xatırlanmasına və bu gün mənim kimi bir çox gənc jurnalistin bu qəzet ətrafında toplaşmasına səbəb oldu. Əminliklə deyə bilərəm ki, ulu diyarımızın sakinləri, ziyalılar bu qərara çox sevinclidir. Bütün bunlara görə bir gənc jurnalist kimi dövlətimizə minnətdarlığımı bildirirəm.

**Səriyyə SALAHOVA**
***"Arazın səsi" qəzetinin məsul katibi***
***Məqalə "Şərq qapısı" qəzetinin 100 illik yubileyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## İnnovativ dərnəklərə alınan avadanlıqların təqdimatı keçirilib

*Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində innovativ dərnəklərə alınan avadanlıqların təqdimatı keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd edib ki, cari ilin iyun ayında ilk dəfə olaraq muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-satışı təşkil olunmuş, 348 şagirdin yaradıcılıq nümunələri sərgi-satışa çıxarılmışdır. İstedadlı və yaradıcı şagirdləri aşkar etmək, hazırladıqları əl işlərini qiymətləndirməklə onları həvəsləndirmək və yaradıcılıqlarının inkişafına lazımi dəstəyi göstərmək məqsədilə keçirilən müsabiqədən əldə olunan vəsait hesabına bu gün dərnəklər müxtəlif avadanlıqlarla təchiz edilir.

Qeyd olunub ki, həmin vəsait hesabına dərnəklərə 2 hana, xalçaçılıq ipləri, dulusçuluq dərnəkləri üçün gil və boyalar, ebru dərnəkləri üçün boya və rəsm kağızları, çərçivələr, misgərlik üçün mis lövhələr, toxuma və bədii tikmə dərnəkləri üçün parça, ip və rəngli saplar, bijuteriya dərnəkləri üçün daş və muncuqlar, digər dərnəklər üçün isə alətlər dəsti, boya, epoksi maye, yapışdırıcı, daş tozu, lak, rəsm çərçivələri və sair alınıb.

Sonda alınan avadanlıq və xammallar məktəbdənkənar təhsil müəssisələrinə təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***"Mənə və mənim bölüyümə verilən tapşırığı böyük şücaətlə yerinə yetirdik. İnşallah, bu cür tapşırıqları biz işğal olunmuş torpaqlarımızda – Şuşada, Qarabağda yerinə yetirib, üçrəngli bayrağımızı işğal olunmuş torpaqlarda sancacağıq". Onu 2016-cı ildə Aprel döyüşləri zamanı televiziyaların birinə verdiyi müsahibədən tanımışdıq. Dördgünlük Aprel döyüşləri ilə başlayan tarixi dörd ildən sonra 44 günlük Zəfərlə başa vuran qəhrəmanlarımızdan idi Ülvü Hüseynov... Zəfərin ilk təntənəsinə gedən yolda – Aprel döyüşlərindən sonra Ülvünün tək bir amalı var idi: gözü önündəcə naməred gülləsinə qurban gedən əsgərlərinin qisasını almaq. Bu düşüncə ilə yaşayan bir qəhrəmanın qisas hissi ilə alovlanan ürəyini, ancaq torpaqlarımızın azadlığından doğan sevinc hissi söndürə bilərdi. Elə belə də oldu. O bu arzudan doğan hisslərlə minlərlə qeyrətli Vətən oğulları kimi, Vətən tariximizin qəhrəmanlıq səhifəsinə şanlı tarix yazdı.***

### *Əfsanəyə dönən ömürlər*

## Sənə göydəki ulduzları hədiyyə edəcəyəm demişdi, ulduzlar medalları imiş...



...Ordubadın Sabirkəndinə doğru irəliləyir maşınımız. Bir az həyəcanlı, bir az qürurlu, bir az kədərli, bir az təlaş doluyam. Nədənsə, hər dəfə şəhid evlərinə üz tutarkən qarmaqarışıq hisslər məni ağuşuna alıb aparır. Kəndə girəcəkdə uzaqdan məğrur-məğrur dalğalanan Vətənimizin üçrəngli bayrağı bizə şəhid evindən soraq verir. Budur, başımızın üstündə qürurla göylərə ucalan bayrağın yanındayıq artıq. Maşından enib, qapıya doğru addımlayıram. Ürəyim daha da həyəcanla vurur. Astaca qapını döyüb, içəri keçirəm. Həyətdə məni bir gənc oğlan qarşılayır. Bu ev şəhid kapitan Ülvü Hüseynovun evidir? – deyə soruşuram. Sanki məndən Ülvü ilə bağlı nəsə bir xəbər alacaqmış kimi düz gözlərimin içinə baxır qardaşı Əli Hüseynov. Bəlkə, hələ də ümid edir Ülvünün sağ olduğuna... Qəzetdən gəldiyimi, Ülvünün qəhrəmanlığından yazacağımı deyirəm Əli Hüseynova. Anası Ülkər xanımı səsləyir. İçəridən nurlu simasına kədər çökmüş ağsaçlı ana gəlir. Bir an dilim quruyur, gözlərimi qaçırmağa çalışıram günahkar insanlar kimi... Əli Hüseynov bizi dağ əzəmətli ana ilə tanış edir. Şəhid anasının məğrur səsi məni özümə gətirir: Vətən sağ olsun, bala! Çox şükür ki, Ülvümün də, bütün şəhidlərin də qanı yerdə qalmadı! Şükür ki, torpaqlarımız azad edildi! Gəl bəri, gəl gedək sənə qəhrəmanın hünərlərindən danışım. Ürəyimdən keçirdiyim sözləri birtəhər özümdə güc tapıb dilimə gətirirəm: "Biz tapdalanan qeyrətimizin, ləyaqətimizin xilası üçün sizin kimi analara borcluyuq. Var olun ki, Ülvü kimi oğullar böyütmüsünüz".

Evə keçirəm. Ülvü ilə dolu xatirələr olan bu ocaq indi onun ev-muzeyini xatırladır. Albomlar, medallar, saysız-hesabsız diplomlar, fəxri-fərmanlar, onun sevə-sevə geyindiyi hərbi formalar, ayaqqabılar... Qapıdan içəri girən kimi, evin baş tərəfindən asılmış şəkildə nur üzlü şəhidimiz məğrur, bir o qədər də təbəssüm dolu baxışlarla onun sorağına gələnlərə "Xoş gəlmisiniz",– deyir sanki... Şəhidin şəkilləri ilə bəzənən guşəyə yaxınlaşıram. Oğlu ilə bərabər çəkdirdiyi şəkillərə baxıram. Atasına olan bağlılığı şəkillərdən hiss olunur şəhid oğulun.

Məni düşüncələrimdən Əlinin səsi ayırır. Döyüşlərin ən şiddətli anları imiş, – deyir şəhidin qardaşı. Şəhadət zirvəsi bütün qeyrətli oğullar kimi Ülvünün də arzusuymuş.

Müqəddəs Şuşa uğrunda gedən döyüşlərdə şəhid olur Ülvü Hüseynov. Şəxsi heyətdən öndə, tək, qabaqda gedib, təhlükə sovuşduqdan sonra əsgərlərini çağırarmış hər dəfə. Bu dəfə də belə olur, təpənin birində düşmən tam təmizlənir, əsgərlər təpəyə yerləşdikdən sonra Ülvü digər təpəyə tərəf gedərkən arzuladığı məqama qovuşur – şəhidlik məqamına...

Şəhidin kiçik qardaşı Hünər Hüseynov da onunla bağlı xatirələrindən danışır: Məni o qədər əzizləyər, çox istəyərdi ki, payına düşən ləziz tikəni göz-gözə vurub, anamdan gizlin mənim qabıma qoyardı. Həyətdə atamın bizim üçün düzəltdiyi turnik vardı. Mənə turnikdə çəkinməyi öyrədər, bir az çox çəkinsəm, daha da həvəslənim deyə, atama bunu, sanki böyük bir qəhrəmanlıq etmişəmmiş kimi danışardı.

Doğulduğu gün əllərini göyə açıb şükür etdiyi, min bir əziyyətlə böyütdüyü oğul payını Vətən yolunda qurban verən Möhsün atanın danışdıqca sözlər boğazında düyünlənir... Deyir ki, şəhid olmağına bir neçə gün qalmış Ülvüdən gələn zənglər kəsilir. Oğlunun şəhid xəbərini almazdan bir neçə gün əvvəl narahatlığı birə-beş artan ata özünə yer tapa bilmir, elə bil bunu əvvəlcədən hiss edir. Qəlbi Vətən eşqi ilə döyünən qəhrəmanın şəhid xəbəri gələndə isə ata hisslərinin gerçəkliyinin məyusluğunu yaşayır.

Çox ehtiyatla verdiyim "Ülvünün yoxluğundan az qala bir il ötür. Təskinliyiniz nədir? – sualına Möhsün ata əli ilə evin baş tərəfində Ülvüyə aid guşəni göstərərək: "Oğlum düşməndən qisasımızı alaraq, kişi kimi, qəhrəmanlıqla vuruşaraq, bax bugünkü Qələbəmiz naminə şəhid olub. Vətən torpaqlarımızın azad olunması, yəqin ki, balama da əyandır, ruhu şaddır indi", – deyə cavab verdi.

Gözləri Ülvünün divardan asılmış, bizə təbəssümlə baxan şəklinə dikilmiş Ülkər ana, sanki hələ də onun yoxluğuna inanmır. Bir gün qapını açıb, gəlib onun boynuna sarılacağı günü gözləyir. Ülkər ana deyir ki, 3 oğul anasıyam. Ülvü ortancıl oğlum idi. "Barmağının hansını kəssən, ağrısı birdir", – deyirlər. Düzdür, elədir, üçü də canımdan candır balalarımın. Ancaq nədənsə Ülvünü bir başqa cür sevirdim. Amma bunu digər övladlarıma bəlli etməməyə çalışardım. Bəzən, özüm-özümü danlayırdım da. Düşünürdüm ki, axı digər iki oğluma haqsızlıq edirəm... Sən demə, Ülvü təkcə mənim üçün deyil, Allah tərəfindən də seçilmiş pay imiş. Verdi, sonra da aldı apardı. Şükür edirəm, o cür qəhrəman, hünərli, cəsarətli oğlum olduğu üçün. Bir ömür fəxarət, başucalığıdır Ülvü kimi oğulun anası olmaq. Ülkər ana deyir ki, həmişə onu gec-gec görməyimdən şikayətlənərdim. İşinə qarşı o qədər məsuliyyətli idi ki. Addımını evə qoyar-qoymaz işlə bağlı zəng gələr, heç bir dəfə də alnını qırışdırmadan bir də təlaşla geri dönərdi. Elə hey şikayətlənərdim ki, ay bala, biz səni görmək üçün gəlmişik, gəl bir otur üzünü doyunca görək. Deyərdi ki, ay ana, hərbçi oturdu daha nə oldu ki... Beyləqanda xidmət edərkən ona baş çəkməyə getmişdik. Gedişimiz mart ayına təsadüf etmişdi. Elə oldu ki, işi ilə bağlı 3 gün evə gələ bilmədi. Həmin ərəfə də 8 Mart Gününə təsadüf etdi. Zəng vurdu məni təbrik etdi, dedi, ay ana, məni bağışla, bu gün yanında ola bilmədim. Amma bu günün hədiyyəsini unutmuram. Sənə göydəki ulduzları hədiyyə edəcəyəm. Sənin adın olan Ülkər ulduzu isə həmin ulduzların ən gözəli olacaq. Onda elə bilmişdim ki, mənimlə zarafat edir. Ülkər ana əli ilə Ülvüyə aid guşədəki medalları göstərərək "Elə bu ulduzları deyirmiş balam", – deyir, qəhər boğazında düyünlənir.

Elə ki sübh tezdən oldu, azan deyildi, namazımı qılıb gəlib bu guşənin yanında oturub, balamla dərdləşirəm. Sonra da özümə təsəlli verirəm, deyirəm ki, o var, yanımdadır, hiss edirəm o mənimlədir. Ağlımda, ruhumda, süfrəmin başında, evimin ən əziz yerində... Hər yerdədir, hər yerdə. Hər yer onun xatirələridir.

"O, şəhid olduqdan sonra onun əsgərləri – müharibədən geri dönən qazilər, dostları, hərbçilər, şəhid anaları bu ailəni bir gün olsun belə, tək qoymayıblar. Oğlum necə onları qoruyub, ağır-əziz edibsə, indi də onlar bizi ağır-əziz edirlər", – deyir Ülkər ana.

Burada ortayaşlı, ağsaçlı bir kişi elə hey Ülvünün şəkillərinə tumar çəkib, şəkillərdən Ülvünü öpərək deyir ki, dayısının balası əliboş qayıtmadı, Sədərək döyüşlərində şəhid olan qardaşım Vüqar Həsənovun timsalında bütün şəhidlərin qisasını aldı. "Minlərlə qəhrəman kimi Ülvü də müqəddəs Vətənimizə zəfər gətirdi. Dadını az qala unutduğumuz qələbəni gətirdi elimizə, obamıza. İllərdir, əsir olan torpaqlarımızın yarasına məlhəm, dərdinə dərman oldular", – deyir Ülvü Hüseynovun dayısı Əbülfəz Həsənov.

Şəhidin əsgəri Qorxmaz Hüseynov deyir ki, kapitan Hüseynov bizim bölüyün komandir heyətindən idi. Çox cəsur, mərd və təcrübəli zabit idi. İlk günlərdən komandir hamımızın diqqətini cəlb etmişdi. Danışığından, hərəkətlərindən necə vətənpərvər və alicənab insan, yüksək dünyagörüşünə, döyüş təcrübəsinə malik zabit olduğu açıq-aydın görünürdü. Şəhid olmazdan bir neçə saat öncə biz əsgərlərlə söhbətlərində deyirdi ki, tezliklə torpaqlarımızı düşmən tapdağından azad edib sağ-salamat evimizə dönək, qələbəni mütləq qeyd edəcəyik, sizə yaxşı bir qonaqlıq verəcəyəm. O bizə komandir olmayıb, böyük qardaş olub. Heç vaxt imkan vermirdi darıxmağa, sıxılmağa. Həmişə elə ab-hava yaradırdı ki, üzümüz gülsün. Döyüşə gedəndə belə, gülərüzlə, şən əhvali-ruhiyyə ilə gedirdik, deyirdi möhkəm olun. Deyirdi ki, mən Aprel döyüşlərində də iştirak etmişəm, Allah onda qismət eləmədi şəhadətə yüksəlməyi, inşallah, indi qismət eləyər. Arzuladığı kimi də oldu, əsl qəhrəman kimi döyüşərək Vətən yolunda şəhidlik zirvəsinə yüksəldi. Ülvü Hüseynov qəhrəman döyüşçü, cəsur komandir kimi ən yüksək adlara layiq zabit idi.

*Haşiyə:* Ülvü Möhsün oğlu Hüseynov 16 aprel 1988-ci ildə Ordubad rayonunun Sabirkəndində anadan olmuşdu. 1995-ci ildə Sabirkənd tam orta məktəbinin birinci sinfinə qədəm qoymuşdu. 2003-cü ildə isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdu. Burada oxuduğu illərdə təşəkkürnamə, Fəxri fərmanla mükafatlandırılmışdı. 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, məktəbi fərqlənmə ilə bitirmişdi. Orada oxuduğu illərdə bütün müəllimlərinin və yoldaşlarının sevgisini qazanmışdı. Vətən müharibəsi başladığı ilk günlərdən döyüşlərdə iştirak edib, amansız döyüş meydanlarında fədakarcasına vuruşaraq torpaqlarımızın azad olunmasında böyük hünər göstərib. Ülvü Hüseynov ötən il noyabr ayının 7-də əbədi ölməzliyə qovuşub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Ülvü Hüseynov ölümündən sonra "Qarabağ" ordeni və "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

*Deyirlər, qəhrəmanlıq heç bir vaxt bir anın bəhrəsi ola bilməz. Bəli, biz xalq olaraq hər zaman şərəfli ölümlə fəxr etmişik, ömürboyu belə ölümlərə can atmışıq. Dediyimiz bir kəlmə söz, verdiyimiz and əlimizdən tutub, bizi ölümə aparsa belə, Vətən uğrunda bu yoldan dönməmişik. Elə Ülvünün Vətənə ülvi sevgisi də onu əlindən tutub şəhadətə yüksəltdi. Bu şəhadət isə onu tanıyan hər kəsə ömürlük fəxarət və başucalığı gətirdi.*

✍ **Gülcamal TAHİROVA**

## Onlayn respublika konfransı keçirilib

Naxçıvan Dövlət Universitetində "Fizika və astronomiyanın müasir problemləri" mövzusunda vebinar təşkil olunub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev elmin müxtəlif sahələrinin kəsişməsində aparılan tədqiqatların səmərəliliyinin artmasına öz töhfəsini verəcək belə vebinarların əhəmiyyətini vurğulayıb.

"Aerokosmik üsulların ətraf mühitin və zəlzələlərin öyrənilməsində istifadə edilməsi" mövzusunda çıxışında AMEA Geologiya və Geofizika İnstitutunun professoru Fuad Hacızadə uzaqdan aerokosmik, həmçinin hava üsulları və kosmik metodlar barəsində məlumat verib.

AMEA Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının icraçı direktoru, professor Nəriman İsmayılov qeyd edib ki, rəsədxananın elmi fəaliyyətində ulduzlarda baş verən fiziki dəyişkənliklərin kompleks tədqiqi əsas yer tutur. Bu sahədə əsas tədqiqatlar ulduz atmosferlərində və qalaktikalarda baş verən qeyri-stasionar proseslərin öyrənilməsinə yönəlib.

Naxçıvan Dövlət Universitetinin dosenti Xanəli Həsənov daşıyıcı raketlərin hərəkətinin spesifik xüsusiyyətlərini təhlil edib.

"Asteroid-komet təhlükəsi problemi" mövzusunda çıxışında AMEA Naxçıvan Bölməsinin dosenti Qulu Həziyev yerin kosmik cisimlərlə – kometlər, asteroidlər, meteoroidlərlə toqquşma təhlükəsi ilə bağlı anlayışın 1980-ci ildə irəli sürüldüyünü diqqətə çatdırıb.

Vebinarın sonunda mövzu ilə bağlı suallar cavablandırılıb.

Konfrans bölmə iclasları ilə davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Maarifləndirici seminar olub



***Naxçıvan Müəllimlər İnstitutunda İnnovasiya laboratoriyasının təşkilatçılığı ilə "Startap layihələri innovativ gələcəyin təməlidir" mövzusunda maarifləndirici seminar keçirilmiş və tələbələrin yeni layihələrinin təqdimatı olmuşdur.***

Seminarı giriş sözü ilə laboratoriyanın mütəxəssisi Səminə Rüstəmova açaraq startap layihələrinin müasir dövrümüzdə mahiyyəti və əhəmiyyətindən, bu layihələrin elmin, iqtisadiyyatın inkişafındakı rolundan danışmış, tələbələrin startapla bağlı layihələrin, təqdimatların təşkilində fəal olmalarının zəruriliyini vurğulamışdır.

Sonra institutun Təbiət və incəsənət fakültəsinin IV kurs tələbəsi Rüfət Hacıyevin təqdimatında startap layihələri, onların necə tərtib olunması,təqdimatların hazırlanması istiqamətində maarifləndirici məlumat dinlənilmiş və startapçı tələbələr Bəhriyyə Əhmədova, Aysun Nağdəliyeva, Gülcan Əlizadə, Abutalıb Ağa Kəngərli öz layihələrini təqdim etmişlər.

Seminarda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Boksçumuz dünya çempionatının yarımfinalında

Serbiyanın paytaxtı Belqradda boks üzrə dünya çempionatında 1/4 final mərhələsinin döyüşləri keçirilib.



Yarımfinala gedən yolda Azərbaycan millisinin 4 üzvü qüvvəsini sınayıb.

Milli komandamızın heyətində Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri də mundialda mübarizə aparırlar. Belə ki, 60 kiloqram çəki dərəcəsində rinqə çıxan Tayfur Əliyev ilk iki döyüşündə müvafiq olaraq Çarles Petit-Homme (Haiti) və Simone Spada (İtaliya) üzərində qələbə qazanıb. 1/8 final mərhələsində dəri əlcək sahibimiz Arslan Xatayevlə (Finlandiya) qarşılaşıb və rinqi məğlub tərk edib.

Digər boksçumuz Sərxan Əliyev isə dünya çempionatında yarımfinala yüksəlib. 71 kiloqram çəki dərəcəsində o, ilk görüşdə Stefen Nevnsi (Şotlandiya) məğlub edib. Növbəti mərhələdə Yuta Akiyama (Yaponiya) ilə qüvvəsini sınayan Sərxan bu görüşdən də qələbə ilə ayrılıb – 5:0. 1/4 finalda onun rəqibi ABŞ təmsilçisi Obed Bart olub. Bu görüşdə böyük əzmkarlıq göstərən idmançımız rəqibini məğlub etməklə (4:1) yarımfinala yüksəlib. Yarımfinala vəsiqə qazanmaqla özü üçün ən azı bürünc medalı təmin edən Sərxan Əliyev final üçün ukraynalı Yuri Zaxariyevlə üz-üzə gələcək. Görüş bu gün keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Hüseynov Kamil Zaloş oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 922